*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Azərbaycan ədəbiyyatşünaslığı, 2024, № 1*
*Səhifə: 5-9*
*https://doi.org/10.59849/2663-4406.2024.1.5*

*ISSN: 2663-4406*
*E-ISSN: 2709-2699*

# Məhəmməd Füzuli – 530

## Böyük Azərbaycan şairi Məhəmməd Füzuli haqqında söz

**İsa Həbibbəyli**
Akademik
Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti
E-mail: isa.habibbeyli@science.az

**Annotasiya**. Azərbaycanda Məhəmməd Füzuli qədər çox tədqiq edilib araşdırılan ikinci sənətkar görmək çətindir. Azərbaycan Füzuşünaslığı nəzəri səviyyəsinə görə də sanballı tədqiqatlarla müşayiət olunan qiymətli əsərlərdən ibarətdir. Son yüzillikdə isə Azərbaycanda Füzulişünaslıq xüsusi bir elmi istiqamət səviyyəsinə yüksəldilmiş, bu mövzuda dissertasiyalar yazılmış, çoxsaylı monoqrafiyalar nəşr olunmuşdur.
Azərbaycan ədəbiyyatının böyük klassik sənətkarı Məhəmməd Füzuli türk-müsəlman dünyasında romantik lirikanın ən görkəmli yaradıcılarından biri kimi şöhrət qazanmışdır. Onun adı Şərqin və ümumiyyətlə, dünya ədəbiyyatının ən qüdrətli sənətkarları ilə bir sırada çəkilməkdə davam edir. Məhəmməd Füzuli (1494-1556) Şərq ədəbiyyatında xüsusi mövqeyə malik olan lirikanı daha da inkişaf etdirərək yeni bir mərhələyə çatdırmışdır.
**Açar sözlər**: Məhəmməd Füzuli, Azərbaycan ədəbiyyatı, Füzulişünaslıq, sənətkar

**Məqalə tarixçəsi:** göndərilib – 03.06.2024; qəbul edilib – 10.06.2024

## A word on the great Azerbaijani poet Mahammad Fuzuli

**Isa Habibbeyli**
Academician
The President of the Azerbaijan National Academy of Sciences
E-mail: isa.habibbeyli@science.az

**Abstract.** It is difficult to find a second master in Azerbaijan who has been studied as much as Mahammad Fuzuli. Azerbaijani Fuzuli Studies is accompanied by valuable researches and contains valuable works. During the last century Fuzuli Studies in Azerbaijan was elevated to the level of a special scientific direction, the dissertations were written on this topic and numerous monographs were published.
Great classical master of Azerbaijani literature Mahammad Fuzuli became famous as one of the most important creators of romantic lyrics in the Turkish-Muslim world. His name is generally mentioned together with the most powerful masters of Eastern and world literature in general. Mahammad Fuzuli (1494-1556) further developed lyric poetry that has a special place in Eastern literature, and moved it to a new stage.

**Keywords:** Mahammad Fuzuli, Azerbaijani literature, Fuzuli studies, master

**Article history:** received – 03.06.2024; accepted – 10.06.2024

**Giriş / *Introduction***

Azərbaycan ədəbiyyatının böyük klassik sənətkarı Məhəmməd Füzuli türk-müsəlman dünyasında romantik lirikanın ən görkəmli yaradıcılarından biri kimi şöhrət qazanmışdır. Onun adı Şərqin və ümumiyyətlə dünya ədəbiyyatının ən qüdrətli sənətkarları ilə bir sırada çəkilməkdə davam edir. Məhəmməd Füzuli (1494-1556) Şərq ədəbiyyatında xüsusi mövqeyə malik olan lirikanı daha da inkişaf etdirərək yeni bir mərhələyə çatdırmışdır.

**Əsas hissə / *Main part***

Əsərlərindən aydın surətdə görünür ki, görkəmli söz sərkərdəsi, böyük qəlb ustası Məhəmməd Füzuli, hər şeydən əvvəl, Aşiqdir. O özünü qürur hissi ilə sözün əsl mənasında "aşiqi-sadiq" hesab edir. Ustad şairin fikrincə, onun aşiqliyi ilə müqayisədə hətta ideal məhəbbət simvolu olan Məcnun da müəyyən mənada kölgədə qalır:

*Məndə Məcnundan füzun aşiqlik istedadı var,*
*Aşiqi-sadiq mənəm, Məcnunun ancaq adı var.*

Artıq elmi fikirdə etiraf olunduğu kimi, "eşq Füzuli yaradıcılığının əsas qayəsi, onun ana xəttini təşkil edən mərkəzi məsələlərdəndir" [3, s.129]. Ona görə də Füzuli eşqinin xarakterini, Füzuli məhəbbətinin fəlsəfəsini aydınlaşdırmadan, bu dahi şairi düzgün başa düşmək və dəyərləndirib, doğru elmi nəticələr çıxarmaq mümkün deyildir.

Bu baxımdan yanaşdıqda aşiq Füzuli aşiqanə Məcnundan ucada, yüksəkdə dayanır. Çünki aşiqlik – Məcnunluq, aşiqanəlik isə Füzuli olmaq deməkdir. Məcnun Leylaya və təbiətə aşiqdir. Füzuli isə Leylaların və məcnunluğun, insanın və təbiətin, xalqın və millətin aşiqidir. Məcnunun eşqi zaman içindədir. Füzulinin eşqi zamana sığmayan bütün zamanların eşqidir,əbədi sevda düşüncəsidir.

Məhəmməd Füzuli şeirində aşiqlik – sevmək, Aşiqanəlik isə anlamaq mənasındadır. Anlamağın mayası düşüncə və kədərdən ibarətdir. Aşiqliyin mahiyyəti eşqdən və sevgidən yoğrulmuşdur. Anlamaq isə böyük Azərbaycan yazıçısı Cəlil Məmmədquluzadə demişkən dərdsiz, kədərsiz mümkün deyildir. Cəlil Məmmədquluzadənin bəyan etdiyi "anlamaq dərdi" anlayışı bəşəriyyətin və böyük ədəbiyyatın əbədi yol yoldaşıdır. Aşiq Füzuli üçün də "anlamaq dərdi" sevda fəlsəfəsinin mahiyyətini müəyyən edir. Bu mənada dahi Azərbaycan şairi Məhəmməd Füzulinin özünə həmdərd axtarması təkcə dərdini bölüşmək, yüngülləşmək məqsədi daşımır. Dərdi çox olan qərib şairin həmdərd axtarışı əqidə dostu, həmməslək Aşiq, düşüncə ortağı axtarmaq deməkdir. Yalnız müdrik, insanpərvər, ədalətli Aşiqlərin birliyi sayəsində təkcə Məcnunu yox, bütövlükdə Məcnunluğu – insanlığı dərddən və şərdən xilas etmək mümkündür.

Məlum olduğu kimi, aşiq Füzulinin varlığı eşqdən və kədərdən yoğrulmuşdur. Məhəmməd Füzuli sənətində eşq aşiqin mənəvi pasportu, kədər isə onun ictimai mahiyyəti və məzmunudur. Məhəmməd Füzuli böyük sələfi Nizami Gəncəvi kimi eşqi "uca göylərin mehrabı" hesab etmişdir. Dahi şairin təsəvvüründə "məşhuri-cahan" olan eşq daha çox həyati və insanidir:





*Can vermə qəmi-eşqə ki, eşq afəti-candır,*
*Eşqi afəti-can olduğu məşhuri-cahandır.*
*...Eşq içrə əzab olduğun ondan bilərəm ki,*
*Hər kimsə ki, aşiqdir, işi ahu-fəğandır.*

Məlum həqiqətdir ki, Aşiq Füzuli aşiqanə Məcnunun yaradıcısıdır. Aşiqanə Leyli və Məcnun üçün müqabil qarşı tərəflər – İbn Səlam və onun tərəfdarlarından, yəni konkret şəxslərdən ibarətdir. Aşiq Füzuli üçün isə əks tərəf sadəcə, ayrı-ayrı şəxslərdən, tayfalar və qəbilələrdən ibarət deyildir. Bütövlükdə "bisükun dövran" Aşiq Füzulinin, yaxud Füzuli Aşiqinin tərəf-müqabilidir. Məcnun digər bir ərəb qəbiləsi ilə, Aşiq Füzuli isə "torpağı qan içən" zəmanə ilə üz-üzədir. Məhəmməd Füzuli qarşı tərəfi, əks cəbhəni Zahidin timsalında ümumiləşdirmişdir. Məhəmməd Füzuli yaradıcılığında Aşiq dövran qəmi içərisində həyat eşqinin, həqiqətpərəstliyin daşıyıcısı, Zahid isə tərkidünyalığın, güşənişinliyin, bədbinlik və biganəliyin timsalıdır. Füzulinin Aşiqi anlamaq dərdinə mübtəladır. Füzuli yaradıcılığındakı Zahid isə geniş düşüncə imkanlarından belə məhrumdur:

*Məndən soruşma mərifətin Zahidin, dedim,*
*Çün görmədim o qövmdə mən yaxşı bir şüar.*

Məhəmməd Füzuli böyük istedadla çox geniş məna daşıyan Aşiqlik fəlsəfəsinin dahi yaradıcısıdır. Bu məqamda Füzulinin ictimai düşüncəsi ilə eşqi, sevgisi arasında bərabərlik işarəsi yaranır. Azərbaycan ədəbiyyatşünaslığında etiraf olunduğu kimi, "Aşiq Füzuli ilə mütəfəkkir Füzuli ancaq vəhdət halında alındığı zaman onu duymaq olur. Füzuli başqa cür dərk edilə bilməz" [4, s.41]. Məhəmməd Füzuli özü də bütün fikirlərini, sevgisini, həyat fəlsəfəsini, ictimai görüşlərini "həmişə aşiqanə" sözlərlə ifadə etdiyini büruzə verərək yazmışdır:

*Məndən Füzuli, istəmə əşarü-mədhü-zəm,*
*Mən aşiqəm, həmişə sözüm aşiqanədir.*

Məlum olduğu kimi, hökmdarların, sərkərdələrin hər birinin özlərinə aid fəaliyyət dövrləri vardır. Başlanğıcı və sonu bəlli olan həmin dövrlər tarixi prosesin müəyyən mərhələsini təşkil edir. Aşiqlik və aşiqanəlik isə zaman və məkan məhdudiyyətini tanımır. Hər dövrün öz aşiqi və aşiqanə nəğməsi, yaxud qəhrəmanı olur. Ayrı-ayrı dövrlərin hökmdarları və sərkərdələri çox vaxt bir-birlərinin əleyhdarları olduqları halda, Aşiqlər və ya aşiqanə qəhrəmanlar arasında varislik əlaqəsi mövcuddur. Onların biri digərinin həyatını, taleyini davam etdirir. Məhəmməd Füzuli də bu fikirdədir:

*Məcnun sürdü növbətin, indi mənəm rüsvayi-eşq,*
*Doğru derlər ki, hər zaman bir aşiqin dövranıdır.*

Aşiqliyin ömrü ən azı Məhəmməd Füzulinin yaşı qədərdir. Bəşəriyyət 530 ildir ki, "bir aşiqin dövranını", yəni Füzuli dövranını heyranlıqla seyr edir və yaşayır, mənən zənginləşir, kamilləşir, yetkinləşir. Bu mənada Aşiqin, aşiqliyin, aşiqanəliyin, Füzulinin dövranı əbədidir. Bəşəriyyətin həmişə Aşiqə, aşiqanəliyə, yəni Füzuliyə ehtiyacı olmuşdur. Belə bir ehtiyac bu gün də var, sabah da sözsüz ki, olacaqdır. Bu gün müqəddəs Kərbəlada yer kürəsini məlum ekvator xətti yox, Aşiq Füzulinin aşiqanə sevgi xətti birləşdirir. Dünyanın müxtəlif qütblərində yaşayan insanların Füzuli orbitində məhz aşiqlik-həyat eşqi, həqiqətpərəstlik, ağıl və kamal, ictimai ədalət və insanpərəstlik ətrafında birləşməsi cəmiyyətə və insanlara yalnız səadət və tərəqqi gətirər. Bəşəriyyətin xilası,

mənəvi cəhətdən saflaşması və kamilləşməsi Aşiq Füzulinin aşiqanə dünyasından keçir. Bəlkə də bütün bunlardan bədgüman imiş kimi, Məhəmməd Füzuli babamız 5 əsr əvvəl dərin dünyəvi kədərlə taleyindən şikayət edərək yazmışdı ki:

*Nə yanar kimsə mənə atəşi-dildən özgə,*
*Nə açar kimsə qapım badi-səbadan qeyri.*

Müasirləri olan tanınmış təzkirəçilərdən tutmuş davamçılarına və tədqiqatçılarına qədər hər kəs Füzuli eşqinin və sənətinin əbədiyyətindən bəhs etmişdir. Hətta tamamilə əks qütbün, yəni romantik ədəbiyyatın deyil, realist bədii düşüncənin görkəmli yaradıcıları da Məhəmməd Füzuli sənətindəki ölməzliyi və müasirliyi görüb etiraf etmiş və yüksək qiymətləndirmişlər. Cəlil Məmmədquluzadənin 1925-ci ildə "Molla Nəsrəddin" jurnalında yazdığı aşağıdakı sözlərin əlavə izahata ehtiyacı yoxdur: "Rəhmətlik Füzuli "Molla Nəsrəddin"in birinci nömrəsindən başlayıb, bu günə qədər məcmuəmizdə iştirak etmiş və şeirlər yazmışdır... İnanmırsınız, götürünüz "Molla Nəsrəddin" məcmuəsinin 20 illiyini tökünüz qabağınıza. Hansı şeirə baxsanız, görərsiniz ki, onda Füzulidən bir duz vardır... Onun məktəbi-əbədisi bizim şairlərin başına girib, bütün əsərlərində Füzuli ruhu görünməkdədir.

..."Molla Nəsrəddin" sözünü qurtarıb deyir ki, Füzuli diridir. Füzuli şeir dövrünün hazırladığı yeniliyə məğlub olmaz və sarsılmaz bir qüvvədir" [2].

Xalq şairi Məmməd Arazın aşağıdakı şeirində cəmiyyətin Məhəmməd Füzuli sənətindəki insanlıq ideallarına əbədi ehtiyacı olması fikri böyük istedadla ifadə olunmuşdur:

*Könlümdə bir nəğmə dil açdı yenə,*
*Ay ellər, bir sevda nəğməsidir o.*
*Açın qapıları səba yelinə,*
*Açın, Füzulinin nəfəsidir o.*

Dahi Azərbaycan şairi Məhəmməd Füzulinin poetik nəfəsi müqəddəs Kərbəla qapısından keçərək, insanlığı yenidən aşiqliyə, aqilliyə, müdrikliyə, kamilliyə, ədalətə çağırmaqda davam edir.

Görkəmli dövlət xadimi, Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyev dahi söz ustadı Məhəmməd Füzuli sənətinə yüksək qiymət vermişdir: "Məhəmməd Füzuli kimi şəxsiyyəti olan xalq fəxr edə bilər... Onun yaradıcılığı Azərbaycan ədəbiyyatı və mədəniyyətinin bəhrəsidir... Füzuli dahi şair kimi Azərbaycanda həmişə hamının qəlbindədir. Bu da ona görədir ki, Füzuli doğrudan da azərbaycanlıdır və Azərbaycana mənsubdur... Onu dünya miqyasında geniş təbliğ edə bilsək, şübhəsiz ki, xalqımızı, onun tarixini, mədəniyyətini, mənəviyyatını bir o qədər çox tanıda, təbliğ edə biləcəyik" [1, s.204-205].

## Nəticə / *Conclusion*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Dahi Azərbaycan şairi Məhəmməd Füzulinin 530 illiyinin qeyd olunması haqqında"kı 25 yanvar 2024-cü il tarixli Sərəncamı bu böyük sənətkarın həyatı və yaradıcılığının, zəngin poetik irsinin və ölməz ideallarının xalqımıza və dünyaya azərbaycançılıq ideyaları əsasında yenidən çatdırılmasına geniş imkan yaradır.

Dahi Azərbaycan şairi Məhəmməd Füzulinin əsərləri ölməzdir və əbədidir!





## Ədəbiyyat / *References*

1. Heydər Əliyev. Ədəbiyyatın böyük borcu və amalı. – Bakı: Ozan, – 1999, – s.204-205.
2. Cəlil Məmmədquluzadə. Füzuli. "Molla Nəsrəddin" jurnalı, 23 may 1925-ci il, №21.
3. Fuad Qasımzadə. Qəm karvanı, yaxud zülmətdə nur. – Bakı: Azərnəşr, – 1968, – s.129.
4. Məmməd Cəfər Cəfərov. Seçilmiş əsərləri, I cild. – Bakı: Azərnəşr, – 1973, – s.41.

## Слово о великом азербайджанском поэте Мухаммеда Физули

**Иса Габиббейли**
Академик
Президент Национальной академии наук Азербайджана
E-mail: isa.habibbeyli@science.az

**Резюме.** В Азербайджане трудно найти второго мастера поэтического слова, изученного так же, как Мухаммед Физули. Азербайджанское физуливедение по теоретическому уровню представляет собой ценные труды, сопровождаемые высококачественными исследованиями. В прошлом столетии физуливедение в Азербайджане было поднято на уровень специального научного направления, на эту тему написаны диссертации, изданы многочисленные монографии.

Мухаммед Физули – великий классик азербайджанской литературы снискал известность как один из самых выдающихся создателей романтической лирики в тюрко-мусульманском мире. Его имя до сих пор упоминается наряду с величайшими мастерами слова восточной и в целом мировой литературы. Мухаммед Физули (1494-1556) еще больше развил лирику, занимающую особое место в восточной литературе, и вывел ее на новый этап.

**Ключевые слова:** Мухаммед Физули, азербайджанская литература, физуливедение, мастер слова